

Aqillər kitaba həmişə yüksək qiymət vermişlər. Onlar hesab etmişlər ki, kitabsız mədəniyyətdən danışmaq olmaz. Həyatın bütün sahələri öz inkişafı üçün ilk növbədə kitabçılıq işinə minnətdardır.

# Möhtəşəm layihə:

## müştərək baxışlar, səmərəli təkliflər

**Böyük yazıçımız Süleyman Rəhimov çox haqlı olaraq deyirdi: "Kitab olmasaydı bəşəriyyətin bütün simaları ulduzlar kimi öz vaxtlarında parlayıb, sonra sönüb gedərdilər..."**

A.Gertsen bu fikri bir az başqa şəkildə səsləndirmişdir: "Bəşəriyyətin bütün simaları tədricən kitabda məskən salmışdır. Nəsillər, adamlar, dövlətlər gəlib getmiş, kitab isə qalmışdır..."

Təbii ki, kitaba bu qədər yüksək dəyər verilməsi səbəbsiz deyildir. Belə ki, hər bir kitab qarşımızda yeni, məchul bir aləmə pəncərə açır, bilmədiyimiz, görmədiyimiz şəxslər, hiss və münasibətlər haqqında məlumatımızı zənginləşdirir, bizi heyrətləndirir, ağlımızı və qəlbimizi nurlandırır.

İnsan ən ülvi duyğularını məhz kitabla birgə olanda səmimi şəkildə bölə, daha dərindən düşünə bilir. Odur ki, ona hamının ehtiyacı vardır.

Kitaba məhəbbət və ehtiramın kompüter əsri dediyimiz indiki dövrdə də yüksək olaraq qalması bəlkə də elə buradan qaynaqlanır.

■

Bu baxımdan, kitab, onun inkişaf və təbliğinə dövlətimiz tərəfindən daim diqqət və qayğı göstərilməsi, dəstək verilməsi təqdirediləsi məqamlardandır. Ölkə başçısı cənab İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilinə tərcümə edilməsi haqqında" və s. sərəncamları, habelə müəyyən mənada onların icrasına xidmət edən, gerçəkləşdirilməsi artıq bir ənənəyə çevrilən, bu yaxınlarda say etibarı ilə üçüncü dəfə keçirilən Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası buna bariz nümunədir.

Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən bu möhtəşəm layihə ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmişdir. Əvvəlcə iştirakçılar Fəxri Xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının qarşısındakı açıq ərazidə təşkil edilən sərgi-yarmarkaya 100 yerli və 20-dək xarici ölkədən nəşriyyat, çap və poliqrafiya müəssisələri, kitab işi ilə məşğul olan qurum qatılmışdır. Açılış mərasimində Baş nazirin müavini Elçin Əfəndiyev, Milli Məclis sədrinin müavini Bahar Muradova, millət vəkilləri, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, mədəniyyət və ədəbiyyat xadimləri, yazarlar, müxtəlif bölgələrdən gələn mədəniyyət işçiləri, kitabsevərlər, paytaxt ictimaiyyəti iştirak etmişdir.



İştirakçıları salamlayan mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Azərbaycan paytaxtında iki ildən bir keçirilən sərgi-yarmarkanın əhəmiyyətindən söz açmışdır. Bildirmişdir ki, ilk dəfə 2009-cu ildə gerçəkləşən sərgi artıq bir ənənəyə çevrilmiş və ölkənin mədəni həyatında öz yerini tutmuşdur: "Nəşriyyatlar, kitab evləri, müxtəlif qurumlar böyük həvəslə bu sərgi-yarmarkaya qoşulurlar. Əsas məqsəd dövlətin kitab çapı, kitabın təbliği və yayılması, dərsliklərin, lüğətlərin, tərcümə və elmi ədəbiyyatın nəşri ilə bağlı qərar və göstərişlərini, bu sahədə görülən işləri diqqətə çatdırmaq, gənc nəslin kitaba maraq və sevgisini daha da artırmaq. Azərbaycan oxucusunu dünyanın aparıcı nəşriyyatlarının məhsulları ilə tanış etməkdir. Sərgi-yarmarka ənənə halını almaqla yanaşı, əhəmiyyətini, coğrafiyasını, oxucu auditoriyasını da genişləndirir. Bu il Azərbaycanın demək olar ki, bütün nəşriyyatları bu işə qoşulublar. Onlar müxtəlif dillərdə çap məhsullarını nümayiş etdirirlər".

Nazir çıxışında Azərbaycanda kitab sənətinin inkişafı istiqamətində görülən işlərdən, nəşriyyat işinə göstərilən diqqət və qayğıdan söz açmışdır: "Azərbaycan dövləti əhalisinin bilik və savadının artırılmasında maraqlıdır. Bu istiqamətdə müxtəlif layihələr icra olunur. Bu siyasətin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli lider daima Azərbaycanda kitab işinə böyük diqqət göstərərdi.

O, dəfələrlə Milli Kitabxanada olub, çıxışlarında kitabın cəmiyyət üçün önəmi haqqında dəyərli fikirlər səsləndirib. Bu gün onun müəyyənləşdirdiyi siyasətə uyğun görülən işlərə baxanda Azərbaycanda kitab işinin hansı səviyyədə inkişaf etdiyinin şahidi oluruq. Respublikamızda kitaba qayğı yüksək səviyyədədir.

Ölkə başçısının müvafiq sərəncamlarına uyğun olaraq həm dünya ədəbiyyatı, həm də milli ədəbiyyat nümunələrinin latın qrafikası ilə yenidən nəşr olunaraq kitabxanalara pulsuz paylanılması çox müsbət addımdır. Sözsüz ki, bu, kitabxanalarda oxucuların sayının artmasına təkan verir.

Azərbaycan kitabının ölkəmizin hüdudlarını aşaraq müxtəlif beynəlxalq sərgilərdə öz layiqli yerini tutması hər birimizdə fərəh doğurur. Biz hər il 6-7 nüfuzlu beynəlxalq kitab sərgisində iştirak edirik. Azərbaycan kitab sənəti nümunələri, maraqlı nəşr layihələri bu tədbirlərdə uğurla təqdim olunur, müxtəlif diplom və mükafatlara layiq görülür.

Bu istiqamətdə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüs və fəaliyyətini xüsusilə qeyd etmək istərdim. Heydər Əliyev Fondunun mədəniyyət layihələri kitab nəşri işinə böyük töhfə verir".

Mədəniyyət və turizm naziri ölkədə kitabxana şəbəkəsinin müasir tələblərə uyğun yenidən qurulduğunu diqqətə çatdırmışdır: "Müasir informasiya daşıyıcılarına keçmə dövrü, kitabxanaların fəaliyyətinin müasirləşdirilməsi, onların eyni zamanda informasiya mərkəzləri funksiyasını daşıması bizim üçün çox önəmlidir. Bununla əlaqədar ölkə başçısı tərəfindən "Azərbaycan Respublikasında kitabxana - informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" təsdiq olunub. Hazırda bu istiqamətdə işlər uğurla davam etdirilir".

III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının zəngin proqramı olduğunu diqqətə çatdıran nazir ümummilli liderin yubileyinə həsr olunmuş tədbirin Azərbaycan Milli Kitabxanasının 90 illiyi ilə üst-üstə düşdüyünü qeyd etmişdir. Bildirmişdir ki, sərgi müddətində paralel olaraq həm Milli Kitabxananın yubileyi ilə əlaqədar tədbirlər, həm də iki beynəlxalq toplantı keçiriləcək. Bunlar Avropa Milli Kitabxanaları Konfransı və Avrasiya Kitabxanalar Assambleyası Əməkdaşlıq Təşkilatının XV ümumi iclasıdır: "Mən əminəm ki, III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası, keçirilən bütün tədbirlər, təqdimatlar yaddaqalan olacaq. Çünki müxtəlif ölkələrin, habelə yerli nəşriyyatların ən son nəşrlərini bu sərgidə görə biləcəyik. Biz bu günlər ərzində bir sıra təqdimatlar keçirəcəyik. İnanıram ki, Azərbaycanda kitaba sevgi həmişə yaşayacaq. Bir daha Bakıda keçirilən kitab bayramı münasibətilə iştirakçıları təbrik edir, onlara uğurlar arzulayıram".

Sonra iştirakçılar sərgi-yarmarkanın stendləri ilə tanış olmuş, son illərdə ölkəmizdə və dünyada nəşr olunmuş kitab, dərslik və jurnallara baxmışlar. Onlara Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə işıq üzü görmüş kitablar, həmçinin Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə çapdan çıxan nəşrlər barədə ətraflı məlumat verilmişdir.

Sərgi ilə bağlı təəssüratlarını bölüşən Baş nazirin müavini Elçin Əfəndiyev bütün oxucuları kitab bayramı münasibətilə təbrik etmiş, Azərbaycanda belə sərgi-yarmarkaların keçirilməsinin ənənə halını aldığını söyləmişdir: "III Bakı Beynəlxalq Kitab-Sərgi Yarmarkasının açılışı son dərəcə fərəhli bir hadisədir. Bu yalnız kitabın deyil, bütövlükdə Azərbaycan mədəniyyətinin, ictimai fikrinin, elminin, incəsənətinin bayramıdır. Kitab bəşəriyyətin, insanlığın ən böyük kəşflərindən biridir və əgər kitab olmasaydı, elmlərin də inkişafı olmazdı.

Hesab edirəm ki, Qobustan qayalarındakı rəsmlərimiz ibtidai insanın bizə yadigar qoyduğu kitablardır. Hər zaman kitab bu və ya digər formada in-

sanla birgə olub. Ulu öndər Heydər Əliyev vaxtilə nəşriyyatlar haqqında fərman imzalayıb və bununla da nəşriyyatların fəaliyyət üçün lisenziya alması aradan qalxıb. Bundan sonra bütün nəşriyyatlar öz fəaliyyətlərini qurublar. Hazırda prezident İlham Əliyevin sərəncamı ilə minlərlə kitab çap olunur və kitabxanalara paylanılır. Hesab edirəm ki, kitaba bu hörmət xalqa hörmətin təzahürüdür".

Sərginin ilk günü müxtəlif təqdimat və tədbirlərlə yadda qalmışdır. Mədəniyyət və Turizm Nazirliyi və Milli Kitabxananın ümummilli lider Heydər Əliyevə həsr olunmuş ekspozisiyası nümayiş etdirilmiş, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının, Rusiya Milli Stendinin təqdimatı olmuşdur.

■

III Beynəlxalq Kitab Sərgi-Yarmarkası çərçivəsində Dövlət Gənc Tamaşaçılar Teatrında "Heydər Əliyev adına" fotoalbomun təqdimat mərasimi keçirilmişdir. Mədəniyyət və Turizm Nazirliyinin hazırladığı fotoalbom ümummilli liderin 90 illik yubileyinə həsr olunmuşdur. Tanınmış elm və mədəniyyət xadimlərinin, millət vəkillərinin, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə açaraq nəşr haqqında məlumat vermişdir.

Bildirilmişdir ki, kitab-albom ölkə Prezidentinin "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" 21 yanvar 2013-cü il tarixli sərəncamının icrasına dair tədbirlər planına əsasən nəşr olunmuşdur.

Kitabda özül daşları ümummilli lider Heydər Əliyevin əli ilə düzülən, onun arzuları və istəkləri timsalında bəhər verən doğma ünvanlardan, ulu öndərin adını daşıyan küçə, yol, prospektlər, mədəniyyət ocaqları, limanlar, bağlar və parklar haqqında danışılır.

Mərasimdə çıxış edən Milli Məclis sədrinin müavini Bahar Muradova bütün həyatını və fəaliyyətini Azərbaycan xalqının yüksəlişinə həsr etmiş unudulmaz insan, böyük azərbaycanlı, ümummilli lider Heydər Əliyevin müstəsna xidmətlərindən, o cümlədən mədəniyyətə diqqət və qayğısından söhbət açmışdır: "Ədəbiyyata, incəsənətə, bütövlükdə mədəniyyətə sıx bağlılığı bu böyük şəxsiyyətin fitri istedadından, yaradıcı təbiətindən və milli irsə olan diqqətindən qaynaqlanırdı.

Bu kitabla tanış olan hər bir şəxsin ilk olaraq rastlaşdığı hər səhifədən süzülən böyük Azərbaycan sevgisi olacaq. Sevgi olmadan gördüyün işə, tutduğun yola, seçdiyin əqidəyə, mənsub olduğun xalqa və millətə, cəmiyyətə, dövlətə xeyir gətirəcək iş görmək mümkün deyil. Heydər Əliyev hansı işdən danışırdısa, ona sevgi ilə yanaşırdı.

Mədəniyyət, ədəbiyyat qədər bir xalqı tanıtdıran, sevdirən ikinci bir amil yoxdur və Heydər Əliyev də bu amili çox yüksək dəyərləndirirdi, bunu hər zaman prioritet məsələlər sırasında saxlayırdı, Azərbaycanı inkişaf etdirməyin yolunun eyni zamanda mədəniyyətdən keçdiyini vurğulayırdı. Odur ki, Azərbaycan qısa bir zamanda çox böyük uğurlara imza atdı, tarixi keçmişinə sahib durdu, bu gününü dəyərləndirdi, sabaha isə nikbin nəzərlərlə baxmağa başladı".

Tədbirdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev ensiklopedik təfəkkürlü, dərin erudisiyalı müdrik şəxsiyyət olan Heydər Əliyevin milli-mənəvi və əxlaqi dəyərlərimizin ümumbəşəri ideyalarla zənginləşdirilməsində xüsusi xidmətlərindən söz açmışdır.

Qeyd etmişdir ki, Azərbaycan mədəniyyətinin yarım əsrdən artıq inkişaf yolu bilavasitə onun adı və şəxsiyyəti ilə bağlıdır: "Ulu öndər xalqımızın qəhrəmanlıqlarla dolu tarixinə, zəngin mənəvi dəyərlərinə, maddi-mədəni irsinə və incəsənətinə həmişə qayğı ilə yanaşıb. Onun əsasını qoyduğu mədəniyyət siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir".

Nazir bildirmişdir ki, III Beynəlxalq Kitab Sərgi-Yarmarkası çərçivəsində silsilə tədbirlər keçirilir. "Heydər Əliyev adına" fotoalbomun təqdimatı bu sırada xüsusi yer tutur: "Çünki ulu öndər elm və təhsil, ədəbiyyat nümayəndələrinə qayğı ilə yanaşırdı, kitablara böyük əhəmiyyət verirdi. Heydər Əliyev o şəxsiyyətdir ki, son yarım əsrdən çox bir müddətdə Azərbaycan cəmiyyətinə rəhbərlik etməklə yanaşı, onun hər bir addımını müəyyənləşdirən bir siyasət formalaşdırıb. Onun yanında həmişə mədəniyyət, incəsənət adamları vardı. O, Azərbaycan mədəniyyətinin tanınması istiqamətində var qüvvəsi ilə çalışırdı".

Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyətində kitab nəşrinə, bu sahənin inkişafına xüsusi yer ayrıldığını deyən Əbülfəs Qarayev diqqətə çatdırmışdır ki, nazirlik tərəfindən Azərbaycan tarixindən müasir ədəbiyyata qədər yüzlərlə kitabın hazırlanmasına dəstək verilmişdir, bir çox nəşrlər hazırlanmışdır: "Bu sırada mən iki kitabı xüsusilə vurğulamaq istərdim. Bunlardan biri hörmətli Prezidentimiz İlham Əliyevin mədəniyyətlə bağlı siyasətini əks etdirən ikicildlik və Heydər Əliyev Fondunun fəaliyyəti, Fondun prezidenti Mehriban xanım Əliyevanın mədəniyyətimizin hamisi kimi gördüyü işləri əks etdirən kitabdır.

Bu kitabı nazirlik üç dildə - Azərbaycan, rus və ingilis dillərində nəşr edib. Heydər Əliyevin əsasını qoyduğu yolun üzərində bu gün müasir, müstəqil Azərbaycanın mədəniyyəti digər sahələrlə bərabər inkişaf etməkdədir. Bu işin layiqli davamçısı hörmətli Prezidentimizdir. Bu ana xətt həmişə davam etdiriləcək. Bu xətt bütün dünyaya Azərbaycanın güclü və qüdrətli bir dövlət olduğunu sübut etməkdədir".

Milli Məclisin mədəniyyət komitəsinin sədri, AMEA-nın müxbir üzvü Nizami Cəfərov, Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov çıxış edərək ulu öndərin Azərbaycanın zəngin mədəniyyətinin dünyaya inteqrasiyasında və təbliğində müstəsna xidmətlərini qeyd etmişlər.

Çıxışlarda bir daha vurğulanmışdır ki, "Heydər Əliyev adına" fotoalbom ölkəmizin quruculuq salnaməsində silinməz izlər qoyan dahi rəhbərə xalqın dərin ehtiramını, sevgisini nümayiş etdirir.

Təqdimat mərasiminin bədii hissəsində xalq artisti Ağadadaş Ağayev və əməkdar artist Tünzalə Ağayevanın ifasında ulu öndərin unudulmaz xatirəsinə həsr olunmuş mahnılar, xalq artisti Məleykə Əsədovanın Heydər Əliyev haqqında söylədiyi şeir maraqla qarşılanmışdır.

■

III Bakı Beynəlxalq Kitab Sərgi - Yarmarkası günlərində paytaxtımızda kitabla bağlı iki mühüm tədbir - Avropa Milli Kitabxanaları Konfransının və Avrasiya Kitabxanalar Assambleyasının toplantıları keçirilmişdir. Hər iki tədbirin iştirakçıları eyni zamanda Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyində iştirak etmək üçün Bakıya gəlmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Avropa Milli Kitabxanaları Konfransının prezidenti Bruno Rasineni və Avrasiya Kitabxanalar Assambleyasının vitse-prezidenti Qulisa Balabekovanı qəbul etmişdir.

Avropa Milli Kitabxanaları Konfransının növbəti toplantısının Azərbaycanda keçirilməsinin əhəmiyyətini vurğulayan dövlət başçısı tədbirdə dünyanın müxtəlif ölkələrini təmsil edən nümayəndələrin iştirakının önəminə diqqət çəkmişdir.

Prezident İlham Əliyev konfransda müzakirə olunacaq məsələlərin kitabxana işinin inkişaf etdirilməsi ilə bağlı beynəlxalq əməkdaşlığa töhfə verəcəyinə əminliyini ifadə etmişdir. Ölkəmizə ilk səfərlərindən məmnunluğunu bildirən Avropa Milli Kitabxanaları Konfransının prezidenti Bruno Rasine Azərbaycan Milli Kitabxanasının binasının onlarda dərin təəssürat yaratdığını söyləmişdir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Avropa Milli Kitabxanaları Konfransının prezidenti, Fransa Milli Kitabxanasının rəhbəri Bruno Rasine ilə görüşmüşdür.

Avropa Milli Kitabxanaları Konfransının növbəti toplantısının Bakıda keçirilməsindən məmnunluğunu ifadə edən nazir ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının əhəmiyyətindən söz açmış, beynəlxalq tədbirdə Avropa Milli Kitabxanaları Konfransının yüksək səviyyədə təmsil olunmasını ölkəmizə olan müsbət münasibətin göstəricisi kimi səciyyələndirmişdir. Azərbaycan və Fransa Milli kitabxana-



ları arasında qarşılıqlı əməkdaşlığa dair razılaşmanı xatırladan Əbülfəs Qarayev bu işdə göstərilən dəstəyə görə Bruno Rasineyə təşəkkürünü bildirmişdir.

Nazir iki ölkənin UNESCO çərçivəsində də faydalı işbirliyi qurduğunu, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu sahədə böyük xidmətlərinin olduğunu qeyd etmişdir.

Əbülfəs Qarayev nazirlik səviyyəsində kitabxana işinə böyük diqqət ayrıldığını, kitabxana işinin təkmilləşdirilməsi, yeni kitabların alınması, maddi-texniki bazanın yaxşılaşdırılmasının daim diqqətdə saxlanıldığını, bu sahə üzrə 2008-ci ildən Dövlət Proqramının həyata keçirildiyini vurğulamışdır. Qeyd olunmuşdur ki, ölkə üzrə müasir tələblərə cavab verən kitabxanalar yaradılır, kitabxanalar arasında virtual əlaqə qurulur, elektron kitabxanaların təşkilinə önəm verilir. Bildirilmişdir ki, aparılan islahatlar nəticəsində kitabxanaların sayı azalsa da, effektivliyi artırılacaq.

Milli Kitabxananın roluna da toxunan Əbülfəs Qarayev əsas kitab bazasının eyni məkanda toplanmasını da düzgün hesab etmədiyini, milli kitabxananın idarəedici funksiyasının artırılmalı, ölkə üzrə bütün şəbəkənin bu xətlə idarə olunmalı olduğunu vurğulamışdır.

Avropa Milli Kitabxanaları Konfransının prezidenti, Fransa Milli Kitabxanasının direktoru Bruno Rasine səmimi qəbula görə minnətdarlığını ifadə etmişdir. Bildirmişdir ki, Fransa ilə Azərbaycan arasında mədəni əlaqələr kitabxana sahəsi ilə məhdudlaşmır və daha geniş sahələri əhatə edir. Kitabxana işinin təkmilləşdirilməsi ilə bağlı nazirin fikirlərini dəstəkləyən qonaq kitabxanaların virtuallaşdırılmasının əhəmiyyətinə toxunmuş, elektron kitabxanaların müasir dövrün tələbi olduğunu demişdir...

■

Beləliklə, III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası öz işini uğurla yekunlaşdırmışdır. Bu möhtəşəm layihə bütün iştirakçılar və seyrçilərdə dərin təəssürat doğurmuşdur.

Onlar bir daha əmin olmuşlar ki, kitab hər bir xalqın mədəni irsini, tarixini, inkişaf səviyyəsini beynəlxalq arenaya çıxaran, tanıdan, təbliğ edən mühüm vasitədir. Hər bir xalq öz yazıçısı, alimi və onların ərsəyə gətirdiyi məşhur əsərlərlə tanınır.

Bu fikirlər eynilə III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının yekunlarına həsr olunmuş iclasda səsləndirilmişdir. İclasda nazirliyin sərgi-yarmarkanın keçirilməsi ilə əlaqədar yaradılan işçi qrupu, "Rubicon" şirkətinin, reklam və təşkilati işlərlə bağlı cəlb edilən şirkətlərin əməkdaşları, Milli Kitabxananın rəhbəri və media nümayəndələri iştirak etmişlər.

İclası giriş sözü ilə açan mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev sərgi-yarmarkanın uğurla başa çatdığını, xarici ölkələrin bu tədbirə böyük maraq göstərdiyini bildirmişdir. Vurğulamışdır ki, Bakıda beynəlxalq kitab bayramlarının keçirilməsi şəhərimizi digər mədəniyyət sahələri kimi, kitab sənətinin də paytaxtına çevirir: "Budəfəki sərgi-yarmarkanın ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr edilməsi sərginin ictimai, mədəni əhəmiyyətini daha da artırdı. Sərgi işini uğurla başa çatdırdı. Biz artıq 2015-ci ildə keçirilməsi nəzərdə tutulan IV Bakı Kitab Sərgi-Yarmarkasına hazırlaşmalıyıq.

İndi biz Bakı Beynəlxalq Kitab Sərgi-yarmarkalarının keçdiyi yola nəzər salmalı, müəyyən boşluqları aradan qaldırmalıyıq. Bilirsiniz ki, bu dəfə sərgi açıq havada keçirildi, müəyyən iqlim dəyişikliyi, yağış olsa da, heç bir ciddi problem yaranmadı, təbii ki, bütün bunlar tədbirə hazırlıq səviyyəsinin göstəricisidir.

Bundan başqa, budəfəki sərgidə media nümayəndələri əvvəlki illərdə olduğu kimi sərginin işıqlandırılmasında, sərgi-yarmarkanın təbliğində əvəzsiz rol oynadılar. Sərgi-yarmarka ilə əlaqədar yaradılan, üç dildə fəaliyyət göstərən www.bakubookfair.com saytı istər dünya, istərsə də Azərbaycan kitab mədəniyyətinin, nəşr sənətinin inkişafının operativ izlənməsi, işıqlandırılması baxımından uğurlu iş sayıla bilər. Saytın daimi fəaliyyəti üçün də lazım olan addımlar atılacaq".

Vaqif Əliyev diqqətə çatdırmışdır ki, Azərbaycan Milli Kitabxanasının 90 illiyi ilə bağlı tədbirlər, eləcə də Avropa Milli Kitabxanaları Konfransı (CENL) XXVII illik və Avrasiya Kitabxanalar Assambleyası Əməkdaşlıq Təşkilatının XV ümumi iclası da sərgi-yarmarkanın keçirildiyi günlərə təsadüf etmişdir: "Milli kitabxana direktorlarının, iclas iştirakçılarının, xarici ölkə nümayəndələrinin sərgimizdə aktiv iştirakı əhəmiyyətli hadisə kimi qeyd edilməlidir. Nəzərə alsaq ki, əksər ölkə nümayəndələri öz hesablarına sərgiyə qatılmışdı, bu hal ondan xəbər verir ki, Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası dünya naşirlərinin, yazarların maraq və diqqətindədir.

**Dünyada məşhur olan Frankfut, İstanbul, Paris, London, Moskva və s. kimi böyük kitab sərgilərinin keçirildiyi şəhərlərin sırasına Bakının da adının əlavə olunması bizi sevindirir. Sonda bir məsələni də xüsusi qeyd etmək istəyirəm ki, iştirakçısı olduğumuz beynəlxalq kitab sərgilərinin ənənələrini öyrənməli, gələcək tədbirlərimizdə uğurlu ənənələrin təmsilçisinə çevrilməliyik..."**

● Y.HİDAYƏTOĞLU